CEYHUN ALLAHVERDİYEV

# FORTEPİANO ÜÇÜN SEÇİLMİŞ ƏSƏRLƏRİN İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

## D Ə R S  V Ə S A İ T İ

BAKI - 2016

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
Ü.HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI

CEYHUN ALLAHVERDİYEV

# FORTEPİANO ÜÇÜN SEÇİLMİŞ ƏSƏRLƏRİN İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

## DƏRS VƏSAİTİ

Azərbaycan Respublikası Təhsil Nazirliyi 29.01.2014 tarixli 83 №- li əmri əsasında nəşr olunub.

BAKI - 2016

Müəllif: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Bəstəkarlıq" kafedrasının professoru
**CEYHUN ALLAHVERDİYEV**

Elmi redaktor : SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, professor
**FƏRHAD BƏDƏLBƏYLİ**

Rəyçilər : SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, AMEA-nın müxbir üzvü, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Bəstəkarlıq" kafedrasının müdiri, professor
**ARİF MƏLİKOV**

Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "İxtisas" fortepiano kafedrasının professoru
**OQTAY ABASQULİYEV**

Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, Azərbaycan Milli Konservatoriyasının professoru
**VAQİF ƏBDÜLQASIMOV**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, Pedaqoji elmlər doktoru,professor
**JALƏ QƏDİMOVA**

Bu dərs vəsaitinə daxil olan orijinal əsərlər ifaçıların konsert repertuarını zənginləşdirməklə yanaşı, uşaq musiqi məktəblərinin şagirdləri, incəsənət gimnaziyası, pedaqoji təmayüllü orta ixtisas məktəblərinin şöbələri, həmçinin, Bakı Musiqi Akademiyasının tələbələri üçün nəzərdə tutulmuşdur.

## MÜƏLLİFDƏN

Fortepiano musiqi müntəxəbatında uşaq aləminin xüsusiyyət və əlamətləri bir sıra görkəmli bəstəkarların diqqət mərkəzində olmuşdur. Klassiklərdən P.İ.Çaykovskinin "Uşaq albomu",R.Şumanın "Gənclər üçün albom"u, A.Qlazunovun "Gənclik albomu" kimi məşhur məcmuələrdəki ənənənələri davam etdirən Azərbaycan bəstəkarlarının uşaqlara həsr olunmuş fortepiano əsərləri də diqqətəlayiqdir.

Onu da qeyd edim ki, Azərbaycanda uşaqlar üçün ilk fortepiano nümunələri A.Zeynallıya məxsusdur. Onun "Uşaq süitası", "Çahargah", "Durna" və iki fuqası öz həcminə görə kiçik olsa da, milli lad-tonal sistemi ilə Avropa musiqi ifadə vasitələrinin sintezinə əsaslanan ilk fortepiano nümunələri kimi dəyərlidir. Həmin əsərlər Azərbaycan bəstəkarlıq yaradıcılığında uşaq fortepiano miniatürlərinin təməlini qoyaraq, uşaq musiqi məktəblərinin tədris repertuarında vacib yer tutmuşdur.

Ötən əsrin 30-40-cı illərində H.Neymətov ("Altı pyes"), Q.Hüseynli ("Yeddi uşaq pyesi"), Ə.Abbasov ("Uşaq pyesləri"), K.Səfərəliyeva ("Azərbaycan ladlarında yazılmış pyeslər") bu sahədə fəaliyyət göstərmişlər. 50-ci illərin sonunda Q.Qarayev proqramlı pyeslər yaradır ("Ad günü münasibətilə marş", "Kədərli hekayə", "Fil və alabaş", "Altı uşaq pyesi"). 1965-66-cı illərdə Q.Qarayev ilk məcmuəsinin davamı kimi "Altı orta çətinlikli pyeslər"in ikinci hissəsini yazır. F.Əmirov da həmçinin ayrı-ayrı pyeslər və iki məcmuə ilə uşaq tədris-pedaqoji repertuarını zənginləşdirir. Gənc ifaçılar üçün bəstəkar, "Variasiyalar", "2 prelüd", "Nağıl" və "Bahar mahnısı" pyeslərini,"Uşaq lövhələri" və "12 miniatür" məcmuələrini yazır.

Uşaq musiqi məktəblərinin yetirmələri üçün E.Nəzirova iki variasiya silsiləsi, "Uşaq pyesləri" və S.Rüstəmov "Azərbaycan xalq mahnıları" məcmuəsinin əsasında xalq mahnı işləmələri yazmışdır. 50-ci illərin sonu uşaq fortepiano musiqi sahəsinə V.Adıgözəlov müraciət edir. O, iki məcmuənin – "Uşaq pyesləri" (1959) və "24 uşaq pyesi"nin (1961) müəllifidir. 60-cı illərdə müxtəlif nəslin nümayəndələri

uşaq fortepiano repertuarını daha da zənginləşdirmişlər. Bunların içərisində A.Dadaşovun "Altı miniatür", M.Mirzəyevin "Gənclik albomu", F.Quliyeva və Ə.Əzizovun etüdlərini misal göstərmək olar.

60-cı illərdə Azərbaycanda uşaqlar üçün ilk fortepiano konserti meydana çıxır. 1964-cü ildə A.Rzayev uşaq musiqi məktəbləri və texnikumlarının yetirmələri üçün nəzərdə tutulmuş üçhissəli Do major konsertini yaradır. Uşaq fortepiano ədəbiyyatı bu dövrdə sonata janrı ilə də zənginləşir.E.Mahmudov, M.Nəsirbəyov,H.Rzayev, A. Dadaşovun sonatinaları uşaqlara ünvanlanmışdır.

70-ci illərdə C.Hacıyevin "Musiqi lövhələri", A.Məlikovun "Uşaq pyesləri", X.Mirzəzadənin uşaq və yeniyetmələr üçün "Uşaq pyesləri", T.Bakıxanovun "Beş uşaq pyesi", E.Rüstəmovun "Altı pyes"i meydana çıxmışdır. 1970-80-ci illərdə S.İbrahimovanın bəstələdiyi fortepiano və orkestr üçün 1 saylı "Konsert" və "Konsertino" - Azərbaycanda uşaqlar üçün fortepiano konserti tarixində yeni bir səhifə açmışdır.

80-ci illərdə T.Quliyev "Cəmilənin albomu", A.Əlizadə "Uşaq süitası", S.Ələsgərov "Qarabağ", "Skertso", "Oyun", "Çəmənlikdə" pyeslərini, F.Quliyeva "Günelin uşaq eskizləri", O. Zülfüqarov "Variasiyalar", A.Dadaşov 1 və 2 saylı sonatinalar, R.Şəfəq "Uşaqlara", "Musiqi naxışları", "İki uşaq lövhəsi", "İki uşaq nəğməsi", beş sonatina, iki variasiya silsiləsi və digər əsərlər yazmışlar.

Müasir mərhələdə E.Dadaşova, C.Abbasov, C.Quliyev, A.Məmmədova, V.Allahverdiyev və digər Azərbaycan bəstəkarlarının uşaqlar üçün bəstələdiyi əsərlər uşaq fortepiano ədəbiyyatının klassik irsinə layiqli töhfədir.

Təqdim olunmuş "**Altı uşaq pyesi**" **(1979-1982)** uşaqlar üçün nəzərdə tutulan silsilə pyeslər ənənəsinin bir növ davamıdır. Onu da qeyd edim ki, məni musiqi aləminə həvəsləndirən virtuoz tarzən və gözəl muğam bilicisi dayım Tağı Tağıyev olmuşdur. Mən hələ 13 yaşında olarkən, dayımın təşəbbüsüylə dahi bəstəkar və dirijor Niyazi ilə görüşümüz zamanı haqqında söz açdığım silsiləmi dinlədikdən sonra böyük maestro dövri mətbuatda öz müsbət rəyini bildirmişdir. Məhz həmin pyesləri 1986-cı ildə Suriya Ərəb Respublikasında keçirilən Beynəlxalq Uşaq

Festivalında ifa edərək, ilk uğurlarımı qazandım. Ümumiyyətlə, Niyazi ilə görüşdən aldığım təəssürat musiqiyə münasibətimi daha da ciddiləşdirdi. Sonralar maestro Niyaziyə ehtiramımı bildirərək bu pyesləri onun əziz xatirəsinə həsr etdim.

Silsiləyə altı miniatür daxildir: 1.**"Uşaq və buz"**;2.**"Yolda"**;3.**"Qəmli mahnı"**; 4. **"Oyun"**; 5. **"Sentimental vals"**; 6.**"Keçi".**

"Altı uşaq pyesi"ni təşkil edən miniatürlərin musiqisini parlaq obraz konkretliyi, faktura elementlərinin şəffaflığı və sadəliyi, eləcə də iti musiqi dili fərqləndirir. Kompozisiyada tematizmin tam şəkildə müəyyən olunmuş milli koloriti Azərbaycan bəstəkarlıq məktəbinin ənənələrinə dayaqlanan yenilik axtarışları ilə növbələşir. Pyeslərdən hər biri proqramlı başlığa, xüsusi obrazlı xarakterə və janr fərdiliyinə malikdir.

Müxtəlif xarakterli pyeslərdə uşaq oyunlarının xüsusiyyətləri vasitəsilə onların xəyal aləmi açılır. Uşaqların həyatı musiqi - məişət təzahürlərində göstərilir və hər pyesdə müəyyən bir janrın dəqiq ifadə olunmuş təsviri verilir.

Silsilədəki pyeslərin hər birində dəqiq tonal mərkəzləşmə duyulur. Harmonik dildə müxtəlif quruluşlu akkordlar tətbiq edilir, çox zaman bu akkordlar sadə major və minor üçsəsliləri olub, paralel hərəkətdə bir-biri ilə növbələşə və qarşılaşdırıla bilir.

**Nümunə 1**

"Uşaq və buz"



Silsilədə həmçinin, iti dissonans sekundalı səslərdən təşkil olunmuş dolğun çoxsəsli akkordlardan ibarət pyeslər də yer almışdır. Müxtəlif növ passaj texnikaları, ostinatolu fon səslənmələri, registr qarşılaşdırılmalarından istifadə olunmuşdur. Qısa musiqi epizodlarının təzadlı qarşılaşdırılması uşaq fortepiano musiqi janrının təbiətindən irəli gəlir.

**Nümunə 2**

"Yolda"




Bəzi pyeslər xalq musiqi janrları ilə bağlı olub, xarakter etibarı ilə onlara yaxındır (məsələn, "Qəmli mahnı"da lirik mahnı, "Keçi"də rəqs). Bu pyeslər xalq mahnı və rəqsləri kimi incə, ürəyə yatandır.

**Nümunə3**

"Qəmli mahnı"



Miniatürlərin qısa şərhində aydın, dəqiq kadensiyalar klassik periodların repriz xüsusiyyətinə malik sadə formaların hissələrini üzə çıxarır. Silsilənin bütün nömrələrində tematizmin, fakturanın inkişafı dəqiq metrik periodikliyə tabe etdirilir.

**Nümunə 4**

"Oyun"




Sırf fortepiano musiqi janrları ilə bağlılıq da vacib yer tutur. Burada xalq və professional janrların özünəməxsus sintezi öz əksini tapır (məsələn, "Yolda", "Oyun" - skertso, "Sentimental vals" - vals).

**Nümunə 5**

"Sentimental vals"




Bununla bərabər, silsilədə skertsovari janr-oyun lövhələri üstünlük təşkil edir və təsirli lirik miniatürlər vasitəsi ilə nəzərə çarpdırılır. Burada milli ladlarla üzvi

şəkildə birləşən funksional harmoniyanın major-minor sisteminə istinad olunması da maraqlı bədii həllini tapmışdır.

**Nümunə 6**

"Keçi"




"Altı uşaq pyesi" uşaq musiqi məktəblərinin pedaqoji repertuarını zənginləşdirmək, uşaq və yeniyetmələrin mənəvi aləmini, onların hərtərəfli inkişafını, müstəqil şəkildə düşünmək bacarığını, yaradıcı potensialını üzə çıxarmaq, onların bədii istedadını formalaşdırmaq üçün nəzərdə tutulan əsərlərdir. Bu pyeslər canlı obrazlılığı, parlaq ifadə olunmuş milliliyi, texniki üsullarının orijinallığı ilə diqqəti cəlb edir.

Azərbaycanda fortepiano sənətinin zəngin tarixi onu göstərir ki, bu janr bəstəkarlarımızın daim diqqət mərkəzində olmuş, özündə milli və Avropa musiqi - ifaçılıq xüsusiyyətləri və üslub üsulları cəm edən proqramlı və qeyri-proqramlı, kiçik və iri formalı əsərlər meydana çıxarmışdır. Azərbaycan fortepiano musiqisi milli musiqi mədəniyyətinin ən vacib sahələrindən biridir. XX əsrin dahi klassikləri A.Zeynallı, Q.Qarayev, F.Əmirovun tədris-pedaqoji təcrübədə geniş rəğbət qazanan fortepiano əsərlərinin ardınca digər müəlliflərin fortepiano əsərləri də populyarlıq əldə etmişdir. A.Məlikov, X.Mirzəzadə, A.Əlizadə, S.İbrahimova və gənc nəslə mənsub olan digər Azərbaycan bəstəkarları fortepiano üçün müxtəlif illərdə əsərlər bəstələmişlər. Bəstəkarlarımızın fortepiano əsərlərində milli musiqinin lad-harmonik və tembr təfəkkürü, musiqi dilinin dərin milliliyi üzvi şəkildə birləşir.

Azərbaycan bəstəkarlarının dəst-xəttindən çıxan fortepiano musiqisi bir tərəfdən fortepiano ifaçılıq mədəniyyətinin inkişafına, digər tərəfdən isə janrın təkamülünə və repertuarın zənginləşməsinə xidmət edir. Bəstəkarlarımızın fortepiano əsərlərinin inkişaf mərhələlərini izlədikcə bu sahədə əldə olunan nailiyyətlər (prelüd, sonatina, sonata və s.) diqqət mərkəzində durur.

Özünün tematik-obrazlı məzmunu və faktura-texniki imkanlarına görə Azərbaycan bəstəkarlarının yaradıcılığında xüsusi yerə malik olan prelüd nümunələrinə tarixi ardıcıllıqla nəzər yetirdikdə, aydın olur ki, bu janrın ilk nümunələrini Niyazi, F.Əmirov, E.Nəzirova, T.Quliyev yaratmışdır. Azərbaycan fortepiano ədəbiyyatında bu bəstəkarların prelüdləri uşaq və yeniyetmələrin ifaçılıq repertuarına daxil olaraq, onun tərkib hissəsinə çevrilmişdir.

Avropada yaranıb, əsrlər boyu təkmilləşən prelüd janrının bədii prinsiplərinin bəstəkarlarımız tərəfindən mənimsənilməsi Qara Qarayevin yaradıcılığında tam olaraq ifadəsini tapır. Onun fortepiano prelüdlərinin yaranması ilə bu janrın inkişafında yeni mərhələ başlanır və fortepiano musiqisinin yeni inkişaf yolları müəyyənləşir. Bu baxımdan, Q.Qarayevin 24 prelüd silsiləsi tükənməz ideya mənbəyidir. Məhz Q.Qarayev prelüd janrının intonasiya məkanını yeni mənada dərk etmiş, onun ifaçılıq xüsusiyyətlərinə yeni münasibət göstərmişdir.

**Fortepiano üçün "Yeddi prelüd" (1987-1990)** məcmuəsindəki prelüdlər obrazlar aləmi nöqteyi – nəzərindən müxtəlifdirlər.

**I prelüd (Andante con moto)** – orta sürətlidir, tempi artırmaq şərti ilə ifa olunur; **II prelüd (Vivo con brilliante)** – iti və gümrahdır; **III prelüd (Sostenuto)** – ritmik cəhətdən dəqiq və tələsmədən ifa olunur; **IV prelüd (Marziale e scherzando)** – marş və skertsosayağı ifa olunur; **V prelüd (Allegro vivace)** – olduqca iti templi, qızğın ifa olunur; **VI prelüd (Furioso con forza**) – çılğın, böyük qüvvə ilə ifa olunur ; **VII prelüd (Pastorale)** – təsirli, sakitdir. Təbiət obrazlarını ifadə edir.

**I prelüd (Andante con moto)** f-moll tonallığındadır. Azərbaycan xalq musiqisinin səciyyəvi 6/8 ritminə əsaslanır. Bu prelüdün əhval-ruhiyyəsi lirik, ifadəli olduğuna görə onu dərindən hiss edərək Andante tempində ifa etmək lazımdır.

**Nümunə 1**




Qeyd edək ki, **II prelüd (Vivo con brilliante)** görkəmli pianoçu, SSRİ Xalq artisti Fərhad Bədəlbəyliyə həsr olunur. Əsərdə milli və caz musiqi elementlərinin Es mayəli "Şur" ladı ilə sintezi özünü aydın göstərir. Bu səsin əsasında dəyişilməyən faktura, ostinatoluluq yaradaraq, fikrin sabitliyinə səbəb olur. II prelüdün iti tempi ifaçı qarşısında müəyyən texniki çətinlik yaradır. Bu çətinlik məhz sol əldə fasiləsiz onaltılıqların daha sonra hər iki əldə tez tempdə davam etdirilməsi ilə bağlıdır.

**Nümunə 2**




Həmin prelüd məcmuəsindən **III prelüd (Sostenuto)** bütün silsilənin bir növ lirik mərkəzidir. Onun həcminin kiçik olmasına baxmayaraq, obrazlar aləmini dəqiq ifadə etmək, tələsmədən, ritmik cəhətdən dəqiq, tempin bir sürətdə (orta) olmasına riayət etmək lazımdır.

**Nümunə 3**




Fortepiano üçün prelüd məcmuəsindən **IV prelüdü(Marziale e scherzando)** müəllif göstərişlərinə müvafiq qaydada marşsayağı – zarafatyana xarakterdə ifa etmək lazımdır. Prelüd məzəli obrazlar aləmini əks etdirir, bu səbəbdən hər bir notu dəqiq, vurğu vasitəsilə ifa etmək məqsədəuyğundur.

**Nümunə 4**




Silsilənin **V prelüdündə (Allegro vivace)** sürətin iti, cəld olması, olduqca qızğın tempi, mürəkkəb 9/8 ölçüsü onu ifa etməkdə pianoçu üçün müəyyən çətinliklər yarada bilər. Digər tərəfdən, akkordlu, üçlaylı faktura hər notun ölçüyə uyğun müddət ərzində dəqiq və müntəzəm səslənməsini tələb edir.

**Nümunə 5**




**VI prelüd (Furioso con forza)** də həmçinin ifaçıdan texniki cəhətdən hazırlıq tələb edir. Musiqi fakturasında əvvəldən sona qədər hər iki əldə özünü göstərən oktavalı notlar təmiz, qüsursuz ifa olunmalıdır. Pyes həm ritmika, həm də harmonik dil etibarilə zəngindir. Baxmayaraq ki, prelüd tək bir alət üçün yazılıb, burada orkestr tembri aydın sezilir.

**Nümunə 6**




**VII prelüd (Pastorale)** Azərbaycan fortepiano musiqisində özünə geniş yer alan lirik - kantilena xarakterinə malikdir. Prelüd quruluş etibarilə üçhissəlidir, burada orta hissə əsas musiqi fikrinin davamı və inkişafı olub, daha ifadəli və ekspressiv səslənir.

**Nümunə 7**




Fortepiano üçün prelüdləri nəzərdən keçirərkən, belə qənaətə gəlmək olar ki, onlar şifahi ənənəli milli musiqi irsi ilə dərindən bağlıdır. Silsilədə cəmləşən prelüdlər təzadlı obrazları əks etdirir. Prelüdlərin obrazlar aləmində dinamika və lirik əhval-ruhiyyə üstünlük təşkil edir. Prelüdlərin musiqi dili ruh yüksəkliyi, həyat qüvvəsinin dolğunluğu və həyatsevərliklə zəngindir.

Hazırki dərs vəsaitində fortepiano üçün seçilmiş əsərlər içərisində– **"Sevəcəm..."** və **"Dəniz və səma" (2006)** adlı **iki lövhə** də vardır. Bu kompozisiyalar dərin obrazlı musiqidir. Məhəbbət və təbiət obrazlarını əks etdirən bu lövhələrin fortepiano və kamera orkestri üçün versiyası da mövcuddur.

**"Sevəcəm..."** (Andante cantabile) – sakit, orta sürətli, ahəngdar, lətafətlə ifa olunmalıdır. Bu kompozisiya pianizmi ilə fərqlənir. "Sevəcəm"–proqramlı əsərdir. Vahid tematik material üzərində qurularaq, böyük konsert salonları üçün nəzərdə tutulmuş və sırf pianoçuluq üsulları üzrə işlənmişdir.

**Nümunə 1**



**“Dəniz və səma”** pyesinin (Moderato)– orta sürətli, insan avazına yaxın bir tərzdə ifa olunması tövsiyyə edilir. Faktura etibarilə burada F.Şopenin fortepiano yazısı və ifaçılıq üslubuna istinad edilmişdir. Onun instrumental balladalarına xas olan axıcılıq, romantik əhval-ruhiyyə böyük məna kəsb edir. İnsan hisslərinin zənginliyi bu kompozisiyada poetik şəkildə təcəssüm etdirilir.

**Nümunə 2**




Ümid edirəm ki, “İki lövhə” milli xalq incəsənətimiz ilə Avropa instrumental musiqi ənənələrini birləşdirən əsərlər kimi, Azərbaycanda yeniyetmələr və gənclər üçün yazılmış fortepiano əsərlərinin inkişafı prosesində maraqlı bir nümunə kimi iz qoyacaq.

Azərbaycan fortepiano musiqi mədəniyyətində mərhələ təşkil edən Qara Qarayev bir tək prelüdləri ilə deyil, eyni zamanda sonatina və sonatası ilə də özünəməxsus musiqi təfəkkürü, orijinal dəst-xətti, yaddaqalan harmoniya və ritmikası ilə fortepiano musiqi sənətində yeni yollar açmışdır. Onun yaradıcılıq simasına xas olan orijinal üsullar və ifadə vasitələri yeni dövr bəstəkarlarına mühüm təsir göstərmişdir.

Təqdim edilmiş **Sonatinada (1989)** Qara Qarayev ənənələri özünü aydın şəkildə göstərir. Sonatina texniki cəhətdən asan olmayan silsilə əsərdir. Quruluş etibarilə ənənəvi üçhissəli formada yazılmışdır. Onun I hissəsi – **Allegro**, II hissəsi – **Andante cantabile**, III hissəsi isə–**Allegretto grazioso**-dur. Sonatina həm musiqi

məktəbləri, həm də ali musiqi tədris müəssisələrinin proqramlarında mühüm yer tutur.

Sonatina həm də özündə dramatik münaqişə kəsb edən bir əsərdir. Burada kəskin tonal və registr qarşılaşmaları vardır. Əsərdə milli başlanğıc aydın ifadə olunur.

I hissənin (e-moll) forması aydın, klassik struktura malikdir. Onun musiqisində dinamik baxımdan diqqəti cəlb edən eniş və yüksəlişlər melodik xəttə dalğavarilik gətirir. I hissədə non legato, stakkatodan geniş istifadə olunmuşdur. Odur ki, sonatinanın I hissəsini əvvəldən sona qədər tokkata ruhunda ifa etmək əsas şərtlərdəndir. Bir - biri ilə eynilik təşkil edən səs uzunluqlarının motorlu, aramsız növbələşməsi onu "aramsız hərəkət" ilə yaxınlaşdırır.

**Nümunə 1**

Sonatina I hissə




Fakturanın davamı inkişaf edilərək əsas mövzunun kulminasiyasına gətirib çıxarır. Burada da ritmik cəhətdən bərabər, aramsız hərəkət özünü göstərir.

Reprizada daha mürəkkəb faktura özünü göstərir və inkişaf simfonikləşir. Burada əsas mövzu xeyli dərəcədə dinamikləşmişdir. Sonatinanın I hissəsinin ifası zamanı bütün dinamik göstərişlərə ciddi riayət etmək lazımdır. Musiqinin malik olduğu itilik və özünəməxsusluğu non legato və aksentlərlə vurğulamaq məsləhət görülür.

Sonatinanın II hissəsi gis-moll tonallığında olub, sanki xalq mahnısının özünəməxsus təfsiridir. Bir növ instrumental ariozonu xatırladır. Burada bərabər

ostinato müşayəti altında "aramsız" lirik melodiya əmələ gəlir. Melodiya improvizəli xarakterə malikdir, xəfif ornamentlilik üstünlük təşkil edir. Bütün bu cəhətlər Azərbaycan muğamlarından gələn xüsusiyyətlərdir və xalq musiqi kökləri ilə olan bağlılıqdan xəbər verir.

Qeyd edək ki, xalq melosu ilə bağlılıq tematik materialın variantlı inkişafında da özünü göstərir. Burada eyni bir mövzu inkişaf etdirilərək, onun əsasında yaranan müxtəlif variant dəyişmələri nümayiş olunur. Bu hissədə emosional obrazlılıq, fikirli əhval-ruhiyyə hökm sürür.

**Nümunə 2**

Sonatina, II hissə




Reprizada mövzu simfonikləşir, musiqi inkişafının bütün hərəkəti kulminasiyaya doğru cəhd göstərir. Bu zaman fortepiano fakturası daha da mürəkkəbləşir, yeni səs birləşmələri, musiqinin dinamikası çoxalır, registr diapazonu genişlənir. Sonra tədricən ilkin musiqi obrazına qayıdış baş verir. II hissənin əvvəlini yumşaq, kulminasiya hissəsini isə bir qədər möhkəm səslə ifa etmək lazımdır.

Sonatinanın Finalı (Allegretto grazioso) E dur tonallığındadır. Bu hissəyə iti, canlı harmoniya və ritmika, virtuozluq, fəallıq, nəbzlilik səciyyəvidir. III hissənin əsas mövzusu oynaq, rəqsvari xarakterə malikdir. Mövzunun milli rəqsvariliyi aydın şəkildə təqdim olunur. İnkişaf vahid axın yolu ilə aparılır.

Finalın musiqi obrazının dəqiq təcəssümü üçün dürüst texniki iş aparılmalıdır. Pianoçu aydın çalğıya malik olmalıdır. İfa iti, virtuoz tərzdə olmalıdır. Sağ əlin partiyasında legato və staccato ardıcıl barmaq ifasının bir-biri ilə növbələşməsinə diqqət etmək lazımdır. Belə ifa əsərin xarakterinə daha uyğundur. III hissədə

simfonikləşmiş faktura daha da artır. Ritmin tez-tez dəyişməsi (3/4, 9/8, 5/4, 8/8, 2/4, 9/16 və s.) musiqinin aktivliyinə səbəb olur.

**Nümunə 3**

Sonatina III hissə




Pianoçuluq nöqteyi-nəzərindən, Sonatinanın Finalı texniki vasitələrin geniş spektrini cəm edir. Burada istər barmaq texnikası, akkordlu texnika, istərsə də ikili notlar geniş tətbiq olunur. Repriza parlaq səslənməni tədricən sona çatdırır. Bu hissəni obraz etibarilə ifadəli, pianoçuluq arsenalının zənginliyi ilə ifa etmək lazımdır.

Fortepiano musiqi tarixində aparıcı janrlardan biri də sonatadır. Dahi alman bəstəkarı L.Bethovenin 32 fortepiano sonatası bu janrın inkişafında mühüm mərhələni təşkil edir. Bəlli olduğu kimi, Bethovendən sonra yazıb-yaratmış romantizm dövrü bəstəkarlarının (F.Şopen, R.Şuman, F.List, İ.Brams, E.Qriq və b.) yaradıcılığında klassik sonata yeni məna kəsb edərək zənginləşmişdi. XIX əsrin sonu-XX əsrin əvvəllərində fransız bəstəkarları Q.Fore, M.Ravel, K.Debüssi, rus bəstəkarlarından A.Skryabin, N.Metner sonata janrına bir sıra yeniliklər gətirmişlər. XX əsr musiqisində S.Prokofyev, D.Şostakoviç, P.Hindemit və B.Bartokun, Azərbaycan bəstəkarlarından Q.Qarayev, F.Əmirov, C.Hacıyev, A.Rzayev, A. Əlizadə və başqa bəstəkarların sonataları əhəmiyyətli yer tutur.

Hazırki dərs vəsaitinə daxil olmuş **Sonata (1993)** unudulmaz müəllimim Arif Məlikova həsr olunub. Sonata üç hissəli olaraq silsilə-sonata formasında

yazılmışdır (I hissə-**Allegro moderato con espressione,energico e passione,** II hissə - **Andante – rubato,** III hissə - **Attacca sub Allegro**-dur).

Sonata kontrast hissələrin (cəld, asta) ardıcıl düzülüşündən ibarətdir. Onun ciddi kompozisiya normaları dəqiq müəyyənləşmişdir. Aramsız və gərgin mövzular arasındakı təzadın kəskinləşməsi, sonra bu mövzuların bir-birinə yaxınlaşması və ümumiləşməsi xüsusi əhəmiyyət kəsb edir. Sonatanın bu cür normativ planı - onun inkişaf mərhələlərində dəyişikliyə məruz qalmış mövzuların qarşılaşdırılması prinsipi başlıca əlamət olaraq saxlanılmışdır.

Əsasını Bethoven ənənələrindən götürən janrın simfonikləşdirilməsi sonatada özünü aydın şəkildə biruzə verir. Bu baxımdan əsərin ifası pianoçudan xüsusi texniki hazırlıq və peşəkarlıq tələb edir. Sonata boyu ən müxtəlif passajlardan və registr növbələşmələrindən geniş istifadə edilmişdir. Bu nöqteyi-nəzərdən kənar hissələr xüsusilə diqqətəlayiqdir. Fortepianonun imkanları vasitəsi ilə simfonik obrazların yaradılması bütün əsərin əsas qayəsini təşkil edir. Burada tonal dolğunluq, faktura itiliyi, forma və məzmun etibarilə mürəkkəblilik inkişaf baxımından özünü göstərir.

**Nümunə 4**

Sonata I hissə




Qeyd edim ki, əsərin musiqi materialı müasir şəkildə təqdim olunub. I hissənin ifası ilə əlaqədar müəllif göstərişlərinə əməl etmək yaxşı nəticə verə bilər. Həmin göstərişlər əsasən ağ və qara klavişlərin hər iki ovucun içi ilə tam şəkildə əhatə

olunmasından, göstərilən klavişi səssiz vurmaqdan, eyni zamanda, pedalizasiya məsələlərindən ("mi" oktavasının növbəti pedal ləğvinə qədər saxlanılması) ibarətdir.

**Nümunə 5**




II hissədə fəlsəfi düşüncəli, nəqledici obrazlar aləmi ilə muğam ənənələrinin yaradıcı şəkildə təqdimi obrazlı məzmuna çoxmənalılıq, emosional təsir gücü daxil edir.

**Nümunə 6**

Sonata II hissə




III hissə obraz çoxcəhətliliyi, lad-harmonik dilin və ritmin zənginliyi baxımından diqqətəlayiqdir. Burada təqdim olunan musiqi materialı muğam və aşıq intonasiya elementlərinin bədii şəkildə dərk edilməsi üçün sərbəstlik yaradır. İfa

zamanı Finalın qətiyyətli səciyyəsini ciddi şəkildə mühafizə etmək əsas şərtlərdən biridir. Burada çoxsaylı sinkopalardan, aksentlərdən istifadə olunur. Onların düzgün göstərilməsi dinamik inkişaf üçün olduqca vacibdir.

**Nümunə 7**

Sonata III hissə




Sonata üzərində iş zamanı pianoçu bir neçə məqamlara diqqət yetirməlidir. Hər hissənin tembr-dinamik cəhətdən müxtəlifliyini, rəngarəngliyini eşitməli, səsləri tembr baxımından zənginləşdirməyə çalışmalıdır.

**"Təmas - fantaziya"(2011)** fortepiano üslub və texnika novasiyalarını milli musiqi təfəkküründün əsas xüsusiyyətləri ilə yeni səviyyədə sintezləşdirən silsilədir. XX əsrin sonu və XXI əsrin əvvəlləri üçün xarakterik olan lad-harmoniya üsullarının təfsiri yenilik və müasirlik baxımından bu əsərdə öz ifadəsini tapmışdır. Silsilədə janr sferasının genişləndirilməsi, onun "Təmas-fantaziya" adlandırılması nəzərdən kənarda qalmır. Janr axtarışları, yeni janr yaratma prosesi baxımından belə bir janrın meydana gəlməsi Azərbaycanda fortepiano üçün müxtəlif forma, janr və üslublarda yazılan əsərlər sırasında silsilənin yerini dəqiq müəyyənləşdirir.

Silsilədə əldə olunan yaradıcılıq nailiyyətlərindən biri də melodiya, intonasiya, ritm, faktura kimi başlıca ifadə vasitələrinin yeni inkişaf, işlənmə prinsipləridir. Bu prinsiplər əsərin üslub, obraz-emosional, struktur, tematizm xüsusiyyətlərini təşkil edir. Müasir ifadə vasitələri axtarışında bu ifadə vasitələrinin genişləndirilərək, zənginləşdirilməsinə səy göstərilmişdir.

Əsərdə parlaq konsert pianizmi özünü göstərir. Silsilə özündən əvvəlki nəsillərin fortepiano əsərlərinin iri formalı, silsiləvi və konsert quruluşlu ənənələrini davam etdirir. Fortepiano ədəbiyyatına yeni bədii problemlər daxil edilərək, maraqlı üslub manerasında həllini tapır, əbədi sualları cavablandırmaq cəhdi qarşıya qoyulur. İnsan qəlbinin zəngin aləmi, onun emosional-mənəvi duyğuları əsərdə tematik və obraz-məzmunu etibarilə geniş diapazon əldə edir.

Struktur baxımından silsilənin beş hissəli quruluşunda hər bir hissənin konkret ada müvafiq olaraq konsentrə edilməsi diqqəti cəlb edir. Musiqi ifadə vasitələrindən rasionallıqla istifadə edilərək onların kompozisiya-dramaturji tarazlılığı yaradılır.

Əsərin daxili fəlsəfi məzmunu və hissələrə verilən adlar bir-biri ilə sıx bağlı olub, vəhdət təşkil edir. İnsanı bütün ömrü boyu müşayət edən mənəvi yaşantılar beş hissə ərzində ardıcıl şəkildə təqdim olunur. I hissədə yaranışdan, genezisdən söhbət açılır. II hissədə insan artıq düşünür. III hissədə onun təsəvvürü meydana çıxır. IV hissədə insan təşvişə düşür. Təşviş müasir insanın qorxusudur. V hissədə isə insan təsirlənir. Beləliklə, bu silsiləvi əsərdə dərin musiqi fikirləri qənaətcil bir şəkildə ifadəsini tapmışdır.

Silsilənin maraqlı üslub xüsusiyyəti budur ki, tematik materialın təqdimi və işlənilməsi zamanı bir sıra mövzular deyil, vahid bir musiqi fikrindən əmələ gələn müxtəlif şəkildəyişmələr, təzahürlər meydana çıxır. İlk baxışda sadə olan musiqi tematizmi öz daxilində bir-birinə zidd geniş obrazlar aləmini cəm edir. Burada bədii poetikliyə, təzadlı qarşılaşdırmalara, epik nəqletməyə, fəlsəfi düşüncələrə geniş meydan açılır.

Qeyd etmək istərdim ki, insan qəlbinin dərin yaşantıları, rəngarəng, emosional spektri və mənəvi yüksəlişi fortepiano aləminin imkanları vasitəsi ilə bədii tərənnümünü tapmışdır. Bu xüsusda "Təmas-fantaziya" kimi janrın əlamətlərinin fortepiano yaradıcılığında əks olunması məntiqli səciyyə daşıyır və dünya musiqi təcrübəsində özünə layiqli yer tutan bir sıra görkəmli əsərlərin ənənələrini davam etdirir.

Əsərin mürəkkəb fortepiano dili həm texniki, həm də obrazlar dairəsi baxımından özünü göstərir. Burada sırf pianoçuluq nöqteyi-nəzərindən qarşıya bir sıra vəzifələr qoyulmuşdur. Məsələn, hər bir hissə müasir fortepiano texnikasının tələb etdiyi ifaçılıq elementlərinin fərdi yaradıcılıq yanaşması baxımından təfsir edilməsinə imkan verir. Bununla yanaşı, müasir pianoçuluqda olan ekspressionizm, romantizmin müxtəlif cəhətləri əsərin intonasiya ifadəliliyini və koloritli səslənməsini gücləndirir. Bu xüsusiyyətlər silsilənin klassik, müasir, sonoristik təzahürlərini üzvi şəkildə əlaqələndirir, fortepianonun ifadəlilik və janr dairəsinin genişlənməsinə səbəb olur.

Silsilədə bir tərəfdən xalq musiqisinin lad, intonasiya, ritm və formayaratma xüsusiyyətlərinə istinad olunur, digər tərəfdən bu xüsusiyyətlər müasir kompozisiya texnikası ilə əlaqələndirilir. Bu cəhətlər müasir stilistik üsulları ön plana çəkir. Vahid musiqi tematizmi alətin geniş tembr və səslənmə imkanlarına, onun bədii traktovkasına gətirib çıxarır.

Bütün hissələri bir-biri ilə möhkəm şəkildə əlaqələndirən əsərin **"Təzahür"** adlı I hissəsinin girişi (Largo) dünya klassiklərinin, o cümlədən, M. Musorqskinin "Sərgidən şəkillər" fortepiano silsiləsi və Q. Qarayevin "Don Kixot" simfonik qravürlərindəki "Gəzinti" və "Səyahət" mövzuları kimi bir ab-hava yaradır. Həmin mövzu silsilə boyu eynilə deyil, modifikasiyaya uğrayaraq təqdim olunur və başlıca musiqi fikrini müxtəlif üsullarla açıqlayır.

Mövzu sabit olmayan tonallıq və dayaq nöqtələrinin aşağı hərəkəti əsasında qurulub. Fraza sonluğunda muğam kadensiyalarına xas bir tərzdə ifadəlilik maraq doğurur .

**Nümunə 1**



Təzadlarla dolu ziddiyyətlərin vəhdəti artıq I hissədə ifadə olunmuşdur. "Lentamente cantabile"də əksini tapan lirik-qəmli düşüncələr, kantilenalılıq aydın şəkildə özünü göstərir. Onun inkişafı zamanı yeni səs yüksəkliklərinə gözlənilmədən baş verən qalxmalar ifaçı qarşısında bir sıra tələblər qoyur: tonallıqların dəyişməsi aydın qeyd edilməli və səslənməlidir. Burada ***a tempo***-ya qayıdarkən, orta bölümün sonu reprizin əvvəli kimi qavranılmalıdır. Beləliklə, "Təzahür"də tonal əvəzlənmələr təkcə dramaturji rol oynamır, həm də ifaçı üçün ciddi vəzifələr qoyur.

II hissədə **("Təfəkkür")** bundan əvvəlki hissənin başlıca musiqi fikrinin şəkildəyişmələri nəticəsində üç hissəli quruluş vahid dinamik səviyyədə özünü göstərir. Bu zaman orta hissədə sürətlənmə daha da artır. İfaçılıq nöqteyi-nəzərindən tempin sərbəstliyi ("Accelerando molto") və improvizəli ritmik azadlıq, fakturada koloristik pedal yazısı hər iki əldə tersiyaların hesabına başa gəlir və melodik-harmonik üslub tersiya kompleksləri ilə səciyyələnir.

**Nümunə 2**




III hissə **("Təsəvvür")** təmkinli səslənməyə malik olub, faktura etibarilə tersiya-oktavalı akkord səslənmələrinin axıcılığı ilə diqqəti cəlb edir. Mahnıvari melodika variantlı inkişaf prinsipləri vasitəsi ilə inkişaf etdirilir. Lirik başlanğıc ("Andante tranquillo") bütün hissə boyu aramsız ostinatolu ritmik formullardan təşkil olunmuş faktura ilə vəhdətdə çıxış edir.

**Nümunə 3**




Silsilənin IV hissəsi **("Təşviş")** ən ekspressiv pyesdir. Onun tempi, ölçüsü, xarakteri, pianistik üslubu adı ilə tam səsləşir. Burada səslərin geniş registr yayımı, sərt akkordika, təzadlı qarşılaşdırmalar, səsli – təsvirli effektlər və detallı dinamika müşahidə olunur. Qeyri-sabit lad mənsubluğunun metro-ritmik variantlıqla uzlaşması pyesin səciyyəvi xüsusiyyətlərini təşkil edir və ona tokkatalı – motorlu xarakter verir, pyesin "birnəfəsə" səslənməsinə şərait yaradır. Bu hissənin tematik elementlərinin mürəkkəbliyi Xeyir və Şər arasında gedən mübarizə kimi də qavranıla bilər.

Yeni üslub axtarışlarının intensivliyi "Təşviş"də xüsusilə gözə çarpır. Bu hissədə müasir bəstəkarlıq texnikası, ümumiyyətlə, texniki novasiyalar tətbiq olunmuşdur. Atonal – müasir harmonik prinsiplər milli lad xüsusiyyətləri seriya ilə uzlaşdırılır. Bütün bu cəhətlər alətin traktovkasında bir çox maraqlı yanaşmalar və həll olmalar ilə seçilir, yeni tembr və sonor səslər əldə olunur .

**Nümunə 4**



Silsilənin sonuncu hissəsi (**"Təsir"**) həcminə görə əvvəlki hissələrdən daha geniş olub, yekunlaşdırıcı xarakter daşıyır. Burada giriş mövzu bir daha səslənir. Bu dəfə də onu "misterioso" tərzində ifa etmək tövsiyyə olunur. "Andante cantabile" oxunaqlı-mahnıvari obrazların ifadəliliyini üzə çıxararaq, intonasiya baxımından maraqlı harmonik boyalar əmələ gətirir. Sakit, yumşaq səslənmənin tədricən artıb daha ifadəli bir məna kəsb etməsi pianizm tipi və ifadə vasitələri kompleksi ilə dəqiq göstərilmişdir. Əvvəlki hissələrin mövzularının obraz dərinləşməsi kulminasiya zamanı müxtəlif pianizm tiplərini (barmaq texnikası, leqatolu və akkordlu – harmonik qarşılaşmalar və s.) cəmləşdirir .

**Nümunə 5**




Təhlilləri yekunlaşdıraraq, belə bir nəticəyə gələ bilərik ki, fortepiano üçün "Təmas -fantaziya" fortepiano musiqi janr və formalarının yeniləşməsi baxımından müasir instrumental texnika növlərinin tətbiqi ilə səciyyələnən bir əsərdir.

Fortepiano üçün seçilmiş əsərlərin texnikası üzərində iş mühüm məqamlardan biridir. Bu zaman həlledici rolu applikatura oynayır. Düzgün seçilmiş əlverişli, rahat aplikatura ilə ifa olunan hər passaj, çətin parça ifa zamanı böyük əhəmiyyətə malik olur.

Əsərlərin üzərində iş prosesində ən mühüm və çətin vəzifə səs üzərində işdir. Musiqinin məzmununun, onun qəmgin, yaxud şən xarakterini əks etdirən səs

keyfiyyətlərinin düzgün ifadə olunması əsərin üslub və musiqi səciyyəsinin açılmasına təsir göstərir.

İnanıram ki, fortepiano üçün seçilmiş əsərlər şagird və tələbələrin musiqi dünyagörüşünün genişlənməsinə, onların milli musiqi duyumunun inkişafına təsir edər, pianoçuların musiqi istedadını əhəmiyyətli dərəcədə inkişaf etdirər, onların ifaçılıq baxımından XX əsr musiqisinə xas olan bir sıra xüsusiyyətlərinin mənimsənilməsinə gətirib çıxarar.

# BƏSTƏKAR CEYHUN ALLAHVERDİYEVİN FORTEPİANO ÜÇÜN SEÇİLMİŞ ƏSƏRLƏRİ

Əməkdar İncəsənət xadimi Ceyhun Kərim oğlu Allahverdiyev Azərbaycanın görkəmli bəstəkarı, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, professor Arif Məlikovun yetirməsidir. Ceyhun Allahverdiyev zəngin yaradıcılıq potensialına malik bir mütəxəssis olaraq özünün bilik və bacarığını milli musiqi sənətinin inkişafına yönəltmişdir. Onun həm elmi, həm pedaqoji fəaliyyəti, həm də bir musiqi təbliğatçısı kimi apardığı iş son dərəcə səmərəli olmuşdur. Bəstəkar "Fortepiano və Simfonik orkestr üçün Konsertin ifasına dair" dərs vəsaitinin, "Alətşünaslıq" fənni üzrə metodik tövsiyyənin, elmi məqalələrin müəllifi, Arif Məlikovun əsərlərinin tam külliyatının nəşri layihəsində musiqi redaktorudur.

C.Allahverdiyevin hələ gənc yaşlarından musiqiyə olan marağı sonradan onun sanballı əsərlərinin yaranmasına gətirib çıxarmışdır. İntensiv yaradıcılıq fəaliyyəti ilə məşğul olan bəstəkarın müəllifi olduğu bir çox əsərlər, o cümlədən, 1 və 2 saylı simfoniyalar, Fortepiano və simfonik orkestr üçün Konsert, "Mənzərə" simfonik lövhəsi, kamera orkestri üçün "Misri", xalq çalğı alətləri orkestri üçün "Oğuznamə" poeması, simli kvartet, fleyta və fortepiano üçün süita, müxtəlif şairlərin sözlərinə mahnı və romanslar və digər əsərləri musiqisevərlərin dərin rəğbətini qazanmışdır.

Beynəlxalq festivalların və simpoziumların iştirakçısı olan C.Allahverdiyev 1999-cu ildə musiqi sənəti sahəsində qazandığı uğurlara görə və Azərbaycan Gənclər günü münasibətilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən diplomla təltif olunmuşdur.

Bəstəkarın əsərləri və müxtəlif tərkibli orkestr kollektivləri üçün işlədiyi xalq musiqi nümunələri nəinki Azərbaycanda, eləcə də digər ölkələrdə, o cümlədən, Rusiya, Yaponiya, Türkiyə, Ukrayna, İran, Fransa, Avstriya və Kuzey Kıprız Türk Cümhuriyyətində uğurla səslənmişdir. Hal-hazırda C.Allahverdiyev Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasında pedaqoji iş aparır.

Ceyhun Allahverdiyevin musiqisi parlaq milliliyə malikdir. O, çox vaxt muğama, Azərbaycan xalq musiqisinə arxalanır. Özünün dediyi kimi, xalq musiqimizə çox bağlı bir insandır və bu bağlılıq, bu məhəbbət onun yaradıcılığına öz təsirini göstərmiş və dərin iz buraxmışdır. C. Allahverdiyev xalq musiqisinin, muğamın zəngin obrazlar dünyasından, onun özünəməxsus intonasiya, ritm və forma quruluşundan qaynaqlanmağı, milli köklərimizi, folkloru yaradıcı surətdə əks etdirməyi bacarır.

Onu da deyək ki, Ceyhun Allahverdiyevin yaradıcılığında fortepiano musiqisi əsas yerlərdən birini tutur. Bəstəkarın fortepiano üçün əsərlərində bütün qeyd olunanlar parlaq əksini tapmışdır. Fortepiano musiqisi sahəsində bəstəkar kiçik həcmli əsərlərdən tutmuş, konsert janrına qədər müxtəlif səpgili əsərlər yaratmışdır. "Altı uşaq pyesi" (1979-1982), "Yeddi prelüd" (1987), "On iki variasiya" (1988), Sonatina (1989), Sonata (1992), Konsert (2002),"Sevəcəm...","Dəniz və Səma" (2006), piano və simfonik orkestr üçün F.Əmirovun mövzuları əsasında "Fantaziya" (2008), "Təmas-fantaziya" (2011) belə əsərlərdəndir.

Ceyhun Allahverdiyevin fortepiano musiqisində uşaqlara ünvanlanan "Altı uşaq pyesi" maraqlı əsərlərdən biridir. Bu əsər barəsində fikir söyləyərkən, demək istərdim ki, bəstəkar ümumiyyətlə, uşaq mövzusunu, uşaq ədəbiyyatını çox sevir. Uşaq mətbuatını müntəzəm izləyir və uşaq aləmi onu bir yaradıcı insan kimi maraqlandıran sahələrdən biridir. Odur ki, bəstəkar uşaqlar üçün müxtəlif janrlarda əsərlər bəstələməyi böyük səadət hesab edir. Axı şən, oynaq, rəngarəng, gözəl musiqi yazmaq, uşaqları sevindirmək olduqca fərəhli bir işdir. Özü də gəlin razılaşaq ki, uşaqlar üçün musiqi yazmaq heç də asan deyil. Odur ki, respublikamızın uşaq musiqi məktəblərində uşaqların sevə-sevə ifa etdikləri bu silsilə uşaq musiqi aləminin ən müxtəlif çalarlarını özündə əks etdirir. Ceyhun Allahverdiyevin "Altı uşaq pyesi" onun uşaq aləminə olan münasibətində həssas, duyğulu bəstəkar olduğunu bir daha üzə çıxarır.

Bəstəkarın fortepiano əsərlərinin digər maraqlı xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bu əsərlər müəllifin həm də istedadlı pianoçu keyfiyyətlərini

ortaya qoyur. İstər fortepiano üçün prelüdlər silsiləsində, istərsə də Sonatina və Sonatada müəllifin nümayiş etdirdiyi yüksək pianizm heç də təsadüfi deyil. Yeri gəlmişkən, onu da deyək ki, Ceyhun Allahverdiyev Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasını bəstəkarlıqla yanaşı, həm də pianoçu kimi (professor Elmira Əliyevanın sinfini) uğurla başa çatdırmışdır. C. Allahverdiyev 1989-cu ildə Moldovanın Tiraspol şəhərində keçirilən Ümumittifaq müsabiqənin I mükafatına layiq görülmüşdür. Gözəl pianoçu olan Ceyhun Allahverdiyev alətin bütün texniki imkanlarına dərindən bələd olub, onlardan geniş istifadə edir.

Fortepiano bəstəkar üçün bir növ geniş axtarışlara imkan yaradan yaradıcılıq laboratoriyasıdır. Müəllif öz fortepiano prelüdlərində millilik zəminində fikir və düşüncələrini əks etdirmiş, xalq musiqisinin obrazlarını yeni nüanslarla, çalarlarla zənginləşdirmişdir.

Qeyd etmək istərdim ki, Ceyhun Allahverdiyevin fortepiano prelüdləri respublikamızın gənc və peşəkar pianoçularının tədris proqramlarında mühüm yer tutur, bir sıra müsabiqələrin proqramlarına müntəzəm surətdə daxil edilir. Eyni zamanda, xarici ölkə pianoçuları tərəfindən də tez-tez ifa olunur. Müxtəlif mövzu və məzmuna əsaslanan fortepiano əsərlərinin obrazlar aləmi olduqca zəngindir.

Eyni xüsusiyyətləri "Sevəcəm...", "Dəniz və səma" adlı fortepiano kompozisiyalarında da, izləmək mümkündür.Prelüdlərin səciyyəvi xüsusiyyətlərindən biri onların musiqi tematizminin səciyyəvi ritm–intonasiyalarla zənginliyində, milli lad xüsusiyyətləri ilə sıx bağlılığındadır.

Müəllif öz prelüdlərində, habelə Sonatina və Sonatada fikir və düşüncələrini milliliyin əsasında əks etdirmiş, xalq musiqisinin obrazlarını bilavasitə yeni nüanslarla, çalarlarla zənginləşdirmişdir.

Ceyhun Allahverdiyevin fitri musiqi duyumuna malik gözəl pianoçuluğu, fortepianonun bütün incəliklərinə məhz ifaçı kimi bələdçiliyi Sonatanın təfsir və texniki məzmununda da parlaq hiss olunur. İkinci bir cəhət Sonatanın zəngin obrazlar aləmidir. Ümumən lirik-dramatik əhval-ruhiyyəni əks etdirən bu əsər obraz- məzmun ifadəliyinə malikdir. Sonata kimi "Təmas - fantaziya" da bu janra xas bir sıra vacib

əlamətlərə malik olub, geniş amplitudanı əks etdirir. Dərin lirizm, muğam-improvizasiyalı inkişaf tərzi, milli intonasiya mündəricəsi müasir ritmika, faktura, lad-harmonik dəst-xətti ilə qovuşur. Milli ənənələr ilə müasirliyin vəhdəti Ceyhun Allahverdiyevin fortepiano musiqisinin rəhnidir.

**Kəmalə Ələsgərli**
Üzeyir Hacıbəyli adına
Bakı Musiqi Akademiyasının
dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru

İstifadə edilmiş ədəbiyyat

1. Гаккель Л. Фортепианная музыка XX века. Очерки.- Л. М.: Советский композитор, 1976.
2. Головинский Г. Композитор и фольклор. – М .: Музыка, 1981.
3. Сеидов Т. Азербайджанская фортепианная культура XX века : педагогика, исполнительство и композиторское творчество. Б: Азернешр, 2006.
4. Мильштейн Я. Вопросы теории и истории исполнительства. М.: Советский композитор, 1983.
5. К вопросу изучения и исполнения фортепианной музыки (Фортепианные сонаты и сонатины азербайджанских композиторов) Методические разработки. (Под ред. Сеидова Т.). – Часть 2. – Б : Минвуз Аз ССР, 1985.

*Maestro Niyazinin əziz xatirəsinə ithaf edirəm.*

# Altı uşaq pyesi

(1979-1982)

## I.Uşaq və buz



# II.Yolda




sf
sf
p
poco
a
poco
cresc.
8vb
f
(8)
8vb
8vb
8vb
8va
f sub. p
(8)
8vb
(8)
f

# III.Qəmli mahnı



# IV. Oyun




1.
2.
mf
1.
2.
p
pp

# V.Sentimental vals




a tempo
p
mf
8va
poco rit.
a tempo
mp
rit.
p

# VI.Keçi




f marcato
8va
8va
(8)
mf
8va
(8)
f

# Yeddi prelüd

(1987-1990)

## I




mf
simile
cresc.
f
ff
f
mf
Ped.
Tempo I
rit.
mp
simile
rit.
pp

*Fərhad Bədəlbəyliyə həsr olunur*

## II

**Vivo con brillante**




mf
mp
poco
a
poco
cresc.
8va
dim.
mf


f
sf sub.p
mf
f
T
Ped.
* Ped.
T
Ped. Ped.
Ped.
T
Ped.
T
p
mf
Ped.
T
*


Ped.
Ped.
ff
T
Ped.
Ped.
T
Ped.
Ped.
T
Ped.
Ped.
cresc.
sf
f
Ped.
Ped.
*
sf

# III


Sostenuto
mf
marcato
f
dim.
mp
mp
cresc.
f
dim.
mp
f
mp
f
Ped. Ped. Ped. Ped. Ped.
*
mp
p
pp
ppp

# IV


Marziale e scherzando
mf
mf
mp
p
8va
mf
sub. f non legato
8va
a tempo
f
rit.
3
Ped. * Ped.
Ped.
Ped.
Ped.
Ped.


f
Ped.
8va
ff
fff
sf
sub.p
mp
pp
dim.

# V




3
5
Ped.
f
sf
sf
3
sub. p
sf
Ped.
sub. p
sf
ff
Ped.

# VI




p cresc.
ff
p
mf
sf
mf
sub.p poco a poco cresc.
f
ff
fff

# VII


Pastorale
sempre legato
sotto voce
una corda
Ped.
Ped.
simile
pp
8va
p


pp
pp
mp
3
mp
senza


Ped.
Ped.
8va
f
Ped.
Ped.
(8)
cresc.
Ped.
Ped.
(8)
ff sub.p
Ped.
f sub. p
Ped.
poco rit.
a tempo
p
una corda
Ped.
Ped.
simile


pp
p
8va
pp
calando
Ped.
(8)
ritenuto
ppp

# İki lövhə

(2006)

## I.Sevəcəm...




mp
simile
mf
f
59


ff
Ped.
s
sp
rit.
a tempo
mp
simile
morendo
pp

# II.Dəniz və səma




simile


mf
Ped.
Ped.
simile
mp
p


mf
Ped.
Ped.
f
Ped.
Ped.
simile


f sub. p
poco rit.
a tempo
mp
pp
Ped.


3
f
ff
Ped.
Ped.
Ped.
Ped.
simile
sff
f


dim.
a tempo
poco rit.
mf
mp
rit.
p
pp
Ped.
pppp

# Sonatina

(1989)

## I




pp
mp marcato
pp
mp
pp
mp
mf
sub. p
poco
a
8va
poco
(8)
cresc.
5
sf sp


mf
f
Ped.
f
sub. p
8vb
(8)
8vb
Ped.
mf


8va
mp
ff
Ped.
mf
f
5
marcato
p
sub. p
6


sub. p poco
a poco
cresc.
5
8va
f sub. pp ( legatissimo )
mp marcato
(8)
(8)
c a l a n d o
(8)
a tempo
rit.
ppp
mp cresc.
5
sf

# II




cresc.
f
sf
ff
rit.
fff
f
m.d.
a tempo
mf
rit.
pp

# III




cresc.
f
ff
sf
sub.p
sf
sub.p
mf


mf
3
mp
3
mf
f
3
f
3
5


gliss.
gliss.
ff
ff
sp
sf p
sf p
sf p
sf p
poco a poco cresc.


f
rit.
Meno mosso
p cantabile
mf
cresc.
f


cresc.
accel.
Tempo I
mf
sf
mp
sf
f
f
p


8va
poco
a
poco
cresc.
ff
8va
f
(8)
ff
sff
mp
p
sf

*Unudulmaz müəllimim **Arif Məlikova** həsr edirəm.*

# Sonata

(1993)

## I




p
Ped.
8va
mf
Ped.
8va
3
3
Ped.
Ped.
(8)
mp
7
Ped.
7
cresc.
7
6
Ped.
7
11
Ped.
11


Energico e passione
ff
il canto sempre marcato
f
ff
sub.p
8va
f
p


8va
Ped.
p
Ped.
ff
Ped.
f
Ped.


8va
8va
p
f
8va
ff
(8)
mp
7
(8)


(8)
Ped.
(8)
ff
Ped.
Ped.
f
ff


8va
sub.p
cresc.
Ped.
(8)
f
ff
marcatissimo
88




a) Hər iki ovucun içi ilə bütün (ağ və qara) klavişləri əhatə etmək.



b) Romb ilə göstərilən klavişi səssiz vurmaq.



c) Burada (E) mi oktavasının (7 xanə) növbəti pedal ləğvinə qədər saxlamaq lazımdır.






a) Burada da həmçinin - ( **E** , **F** ) **mi** və **fa** sekundasını ( 10 xanə ) növbəti pedal ləğvinə qədər saxlamaq lazımdır.


mp cantabile
tre corde
pp
mf
mp


poco a
poco
cresc.
f
ff
simile


Ped.
Ped.
f
Ped.
Ped.
3
Ped.
Ped.
Ped.


mp
Ped.
♪=♪
p
Ped.
pp
Ped.
Ped.
Tempo I
6
6
f
6
6
Ped.
f
sub.p
Ped.


Ped.
Ped.
Ped.
Ped.
f
sp


cresc.
ff
simile
sf
sf


Ped.
sf
fp
f
p


8va
f
Ped.
p
Ped.
ff
sf
sf
mf
Ped.
ff
sf
Ped.
ff
sf
Ped.
mp
Ped.
Ped.


ff
sf
sf
mp
Ped.
ff
Ped.
ff
sf
mp
Ped.
ff
sf
sf
f
ff
sf
6
6


f
ff
sf
sf
f


p
Ped.
f
sub.p
mp


8va
ff
8va
mp
8va
cresc.
8va
fp
Ped.
(8)
mp




**a)** Yenidən - ( **Es** ) **mi** ♭ oktavasını (7 xanə) növbəti pedal ləğvinə qədər saxlamaq lazımdır.


smorzando
Tempo I
mf
the corda
ff
sf
f


8va
(8)
Ped.
sff
sff

# II




mp
rit.
pp
poco a poco
accelerando
mp
rit.


a tempo
Ped.
cresc.
f
m.g.
m.s.


8va
8va
3
3
3
Ped.
(8)
f
Ped.
Ped.
Ped.
Ped.
8va
3
sf
3
f
5
f
m.g
3
8va
7
m.s. 3
Ped.
(8)
5
5
7
3
3
3
3
Ped.
Ped.
Ped.


Ped.
3
3
sff
sub.p
rit.
ff
accelerando
a tempo
fff
rit.
mf
Ped.


mp
7
7
pp
(8)
ppp
Ped.
Ped.
Ped.
ppp
Attacca
Ped.

# III




8va
sf
sub.p
Ped.
3
cresc.
dim.


8va
f
Ped.
(8)
mp
dim.
pp
5
6
7


8va
Ped.
(8)
f


fp
poco
a
poco
fp


ff
fp
Ped.
sf
f
6
7
5
p


8va
3
Ped.
sf
ff
sub.p
f
p


sfp
ff
f
sf sub.p poco a
poco cresc.
ff
sub.pp


Ped.
Ped.
simile
sf
p
cresc.
Ped.
8va
(8)
f
Ped.
Ped.
simile


cresc.
sf
sub.p
Ped.
ff
Ped.
Ped.
Ped.
simile
sf
p
Ped.
mf
Ped.
Ped.


8va
Ped.
(8)
sf
p
f
Ped.
Ped.
5
cresc.
5
Ped.
3
3
Ped.
3
3
Ped.
Ped.


ff
Ped.
Ped.
mf
simile
ff
mf
ff
Ped.
Ped.
Ped.
Ped.
8va
f
ff
f p
8vb
Ped.
123


ff
sf
sf
f
7
6
Ped.
p
ff
sf
ff
5
5
f
p
Ped.
sf
sf
sf
3
Ped.
3
sf
Ped.


sf
ff
Ped.
sub.p
f
p
gliss.
C - dur
sf
sub.p
pp
(8)
(b)


8va
Ped.
(8)
poco a poco
cresc.
f
marcato


ff
p
Ped.
mp
Ped.
Ped.
3
3
3
3
3


8va
3
3
3
(8)
6
6
6
6
8va
(♭)
(♭)
ff
(♭)
(♭)
Ped.
8va
3
8va
cresc.
8va
f
Ped.


(8)
3
3
(8)
p
3
Ped.
Ped.
ff
ff
7
7
Ped.
ff
sf
7
6
8va
Ped.
(b)
(b)
ff
gliss.
sf
Ped.

# Təmas-fantaziya

(2011)

## Təzahür




mp dolce
3
3
Ped.
Ped.
simile
p
dolcissimo egualmente
Ped.
Ped.
a tempo
f
rit.
p
Ped.
Ped.
Ped.
Ped.
Ped.
Ped.
a tempo
poco rit.
mp
simile
dim.
rit.
p
Ped.
Ped.
Ped.
Ped.
Ped.
Ped.
Ped.
*

# Təfəkkür


Andante
pp misterioso
simile
p
pp espressivo
accelerando molto
p
mp
mf
vibrato
f cresc. molto


ff
sfff
ff
Ped. Ped. Ped. Ped.
Andante
pp misterioso
Ped. Ped. Ped. Ped. simile
pp espressivo
Ped.
poco rit.
ppp
Ped. Ped. Ped. Ped. Ped. Ped.

# Təsəvvür


Andante tranquillo
p dolcissimo,
delikatamente
sempre molto legato
Ped.
simile
8va


mp
Ped.
8va
(8)
simile
a tempo
pp
rit.
8vb


simile






rit.
ppp

## Təşviş


Allegro agitatissimo
f sempre marcatissimo
sf


8va
sf
ff feroce
f
sf
sff
feroce


8va
sf
sf
p subito
f
mf
Ped.
ff
sf
Ped.
Ped.
f
sf
sf
8va
ff
sfff
Ped.

# Təsir


Andante
pp misterioso
simile
Andante cantabile
p espressivo
simile


poco rit.
simile
a tempo
mp
mf
Ped.


cresc.
accelerando
f
ff
appassionato
8va
(8)
sf
sf
sf


(8)
sf sf sf sf
Ped.
(8)
p dolce
Ped. Ped.
f
Ped. Ped. Ped.
rit.
a tempo
mf espressivo
Ped.
3
3
3
Ped. Ped.


dim.
3
Ped.
a tempo
rit.
pp tranguillo
morendo
6
ff
attacca
sff
mf
8va
rit.
(8)
pp

# M Ü N D Ə R İ C A T

Müəllifdən..... 3

Bəstəkar Ceyhun Allahverdiyevin

fortepiano üçün seçilmiş əsərləri..... 27

**Altı uşaq pyesi**

1.Uşaq və buz..... 31
2.Yolda..... 32
3.Qəmli mahnı..... 34
4.Oyun..... 35
5.Sentimental vals..... 37
6.Keçi..... 39

**Yeddi prelüd**

I..... 41
II..... 43
III..... 47
IV..... 48
V..... 50
VI..... 52
VII..... 54

**İki lövhə**

I. Sevəcəm… ..... 58

II. Dəniz və səma..... 61

Sonatina..... 68

Sonata..... 82

Təmas-fantaziya..... 130

CEYHUN KƏRİM OĞLU ALLAHVERDİYEV

# Fortepiano üçün seçilmiş əsərlərin İfaçılıq xüsusiyyətləri

## Dərs vəsaiti

**Not qrafikasi Oqtay Kərimov**